# Bakıda velosiped idmanının BMX növü üzrə dünya çempionatı uğurla başa çatdı






*(Əvvəli 1-ci səhifədə)*

Bunun nəticəsidir ki, beynəlxalq idman qurumları böyük yarışların təşkilatçılıq hüququnu tərəddüd etmədən ölkəmizə etibar edirlər. 2015-ci ildə ilk Avropa Oyunları, 2016-cı ildə 42-ci Ümumdünya Şahmat Olimpiadası, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunları Azərbaycanın təşkilatçılıq potensialının kifayət qədər yüksək olduğunu bir daha bütün dünyaya göstərdi. Beynəlxalq Velosipedçilər İttifaqının builki dünya çempionatının Bakıda keçirilməsi barədə qərarını ölkəmizdə idman və bədən tərbiyəsi sahəsində əldə olunan nailiyyətlərə verilən yüksək qiymət kimi dəyərləndiririk".

Müstəqil Azərbaycan Respublikasının qurucusu, ümummilli lider Heydər Əliyevin idmanı ölkənin suverenliyini nümayiş etdirən rəmzlərdən biri kimi dəyərləndirdiyini vurğulayan Yaqub Eyyubov idmanın Azərbaycan xalqının həyat tərzinin mühüm hissəsi olduğunu bildirib. Baş nazirin birinci müavini deyib ki, ölkəmizdə idmanın bütün növlərinin inkişafına xüsusi diqqət və qayğı ilə yanaşan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə yaradılmış Təşkilat Komitəsi bu yarışın yüksək səviyyədə keçirilməsi üçün lazım olan bütün tədbirləri görüb. Diqqətə çatdırılıb ki, Beynəlxalq Velosipedçilər İttifaqının rəhbərliyi və ekspertləri yarışın keçirilməsi üçün görülmüş bütün təşkilati tədbirlərin və meydançanın müasir tələblərə cavab verdiyini, çempionatın yüksək səviyyədə keçirilməsi üçün tam hazır olduğunu bildiriblər.

"Əminik ki, çempionat uğurla keçəcək və bu möhtəşəm yarışın iştirakçıları, qonaqlar ölkəmizdən xoş təəssüratla ayrılacaq, Bakıda keçirdikləri hər günü yaddaşlarında həyatlarının ən gözəl anları kimi saxlayacaqlar", - deyən Yaqub Eyyubov yarışı açıq elan edib.

Daha sonra Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

Açılış mərasimindən sonra "Challenge" kateqoriyasında yarışan kiçik yaşlı yeniyetmələrin və veteranların mübarizəsinə start verilib.




İyunun 5-də maraqlı mübarizə şəraitində keçən veteranların yarışlarına yekun vurulub.

30-34 yaşlı kişi veteranların yarışında Fransa təmsilçisi Çarli Qaillard, kişilər arasında 35-39 yaş kateqoriyasında boliviyalı Jid Martinez, 40-44 yaş kateqoriyasında Fransa idmançısı Kristof Tardivet, 45-49 yaş kateqoriyasında niderlandlı Riçard Van Zomeren birinci yeri tutublar.

Bakı mundialında kişilərin yarışında 50 və daha yuxarı yaş kateqoriyasında yeni zelandiyalı Paul Luttrell ilk pillədə qərarlaşıb.

Qadınların mübarizəsində 30-39 yaş kateqoriyasında Çili təmsilçisi Karla Ortiz uğurlu çıxışı ilə yadda qalıb. 40 və daha yuxarı yaş kateqoriyasında Niderland velosipedçisi Rebekka Neus-Viçman bütün rəqiblərini qabaqlayıb.

Dünya çempionatının ikinci günündə - iyunun 6-da kiçik yaşlı yeniyetmə oğlanların "Challenge" yarışlarının qalibləri müəyyənləşib. 5 və 6 yaşlı velosipedçilərin yarışında ABŞ idmançısı Keyn Şultheys, 7 yaşlılarda ABŞ idmançısı Jozef Mather, 8 yaşlıların yarışında braziliyalı Lukas Kardoso Darriba, 9 yaşlılarda avstraliyalı Fraser Vauqan, 10 yaşlılarda Tama Onekava, 11 və 12 yaşlılarda müvafiq olaraq, ABŞ təmsilçiləri Kol Frederik və Ronni Kim fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Yarışların ikinci günü kiçik yaşlı yeniyetmə qızların "Challenge" yarışlarının qalibləri də bəlli olub.

8 yaşlı idmançıların yarışında Yaponiya təmsilçisi Mana Savada, 9 yaşlılarda Qvadalupe Palasios Palomeque, 10 yaşlıların mübarizəsində ABŞ idmançısı Taylor Sprat, 11 yaşlı idmançıların yarışında avstraliyalı Portia Eden, 12 yaşlıların mübarizəsində Latviya idmançısı Paula Kibare bütün rəqiblərindən üstün olublar.

İyunun 7-də isə yeniyetmə oğlanların və qızların yarışlarında qaliblər müəyyənləşib. 13 yaşlı oğlanların mübarizəsində avstraliyalı Tomas Tuker, 14 yaşlı oğlanlarda Avstraliya velosipedçisi Jordan Kallum, 15 yaşlı velosipedçilər arasında Argentinalı Qianni Antonio Daddona fəxri kürsünün ən yüksək pilləsini tutublar. Çempionatda 16 yaşlılar arasında Fransa idmançısı Tatyan Lui Hin Tsan bütün rəqiblərini qabaqlayıb.

13 yaşlı qızların mübarizəsində Yeni Zelandiya idmançısı Leila Valker, 14 yaşlılarda Avstraliyalı Kira Hill, 15 yaşlı qızların yarışında britaniyalı Lauren Anyon, 16 yaşlı qızların mübarizəsində isə İsveçrə idmançısı Nadine Aeberhard birinci yeri tutaraq ölkələrinin aktivinə qızıl medal yazdırıblar.

Yarışların üçüncü günündə - iyunun 7-də həvəskarlar və "Masters" kateqoriyalarında yarışlara da yekun vurulub.

Oğlanlar arasında 17-24 yaş kateqoriyasında Kevin Spanninq, kişilər arasında 25-29 yaş kateqoriyasında Niderland idmançıları Robin Van Der Kolk, 30-34 yaş kateqoriyasında kişilərin mübarizəsində Böyük Britaniya idmançısı Skott Vaterhaus, 35 və daha yuxarı yaş qrupunda kişilərin yarışında yeni zelandiyalı Tim Ferqusan fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. 17-24 yaş kateqoriyasında qızların mübarizəsində Böyük Britaniya idmançıları Şarlotte Qrin və Lauren Stik ilk iki pilləyə yüksəliblər.

Qadınların 25 və yuxarı yaş qrupunda Niderland idmançısı Lieke Klaus birinci olub.

"Masters" kateqoriyasında 30 və yuxarı yaş qrupunda ABŞ idmançısı Teylor Braun dünya çempionu olub.

Start xəttinə çıxan Azərbaycan velosipedçiləri Orxan Məmmədov, Vüqar Nəsibov, Kənan Babayev və Yelmar Şahmarzadə mükafatçılar sırasında yer ala bilməyiblər.

Gənc qadınların mübarizəsində isə niderlandlı İndi Şipers 38.038 saniyəlik nəticə ilə hamıdan üstün olaraq qızıl medal qazanıb. Gənc kişilərin yarışında isə birinci yerə 33.077 saniyə nəticə ilə fransalı Leo Qaroyan sahib çıxıb.

Elit kateqoriyasında qadınların yarışında Niderland idmançıları ilk üç pillədə yer alıblar. Laura Smulders 35.690 saniyəlik nəticə ilə fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Merel Smulders gümüş, Judi Baau isə bürünc medala sahib olublar.

Kişilərin mübarizəsində isə fransalı velosipedçilər fəxri kürsünün ilk iki pilləsinə qalxıblar. Fotofinişə əsasən, 31.426 saniyə nəticə ilə Silvain Andre birinci olub.

BMX növü üzrə dünya çempionatının yekunlarına görə qaliblərin mükafatlandırma mərasimi olub.

Medalları Azərbaycan Velosiped İdmanı Federasiyasının birinci vitse-prezidenti, Avropa Velosipedçilər Birliyinin Rəhbər Komitəsinin üzvü Sahib Ələkbərov, Azərbaycanın gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov, Beynəlxalq Velosipedçilər İttifaqının BMX komissiyasının və İttifaqın idarə heyətinin üzvü Artur Lopes və qurumun vitse-prezidenti Renato Di Rokko təqdim ediblər.

İlk üç pillədə qərarlaşan idmançılara medallarla yanaşı, qalib idmançıya çempionluq köynəyi verilib.

Mükafatlandırma mərasimi möhtəşəm atəşfəşanlıqla başa çatıb.

Dünya çempionatını minlərlə yerli və xarici azarkeş izləyib. Tribunadan kənarda dincəlmək üçün istirahət guşələri yaradılıb. Dünya çempionatının talismanı Qafqaz bəbiri isə




azarkeşlərə xoş anlar bəxş edib.

İyunun 9-da Bakıda velosiped idmanının BMX növü üzrə dünya çempionatı çərçivəsində yarışın keçici bayrağı növbəti mundiala ev sahibliyi edəcək Belçika nümayəndəsinə təqdim olunub.

Azərbaycan Velosiped İdmanı Federasiyasının birinci vitse-prezidenti, Avropa Velosipedçilər Birliyinin Rəhbər Komitəsinin üzvü Sahib Ələkbərov keçici bayrağı Belçikada təşkil olunacaq dünya çempionatının təşkilatçısı Cef Simonsa təqdim edib.

Beynəlxalq Velosipedçilər İttifaqının BMX komissiyasının və İttifaqın idarə heyətinin üzvü Artur Lopes də mərasimə qatılıb.

Velosiped idmanının BMX növü üzrə növbəti dünya çempionatı 2019-cu ildə Belçikanın Heusden-Zolder şəhərində keçiriləcək.

# Bakıda velosiped idmanının BMX növü üzrə dünya çempionatı uğurla başa çatdı



***Azərbaycan daha bir mötəbər idman tədbirinə yüksək səviyyədə ev sahibliyi edib. İyunun 5-dən 9-na qədər paytaxt Bakıda davam edən velosiped idmanının BMX növü üzrə dünya çempionatında 43 ölkədən 1500-dək velosipedçi birincilik uğrunda mübarizə aparıb.***

Məlumat üçün bildirək ki, ölkəmizdə indiyədək Olimpiya idman növü olan güləş, boks və bədii gimnastika üzrə dünya çempionatları uğurla keçirilmişdi. Velosiped idmanının Olimpiya növü olan BMX üzrə bu mundial isə Azərbayjanda keçirilən sayja dördünjü dünya çempionatıdır.

Çempionatın keçirildiyi BMX stadionuna gəlincə bu məkan 2014-cü ildə istifadəyə verilib, burada ilk Avropa Oyunlarının BMX üzrə velosiped yarışları təşkil olunub. 2016-cı ildə isə Beynəlxalq Velosipedçilər İttifaqı BMX stadionlarının standartlarını dəyişib. Trekin uzunluğu, eni, döngələrin hündürlüyü artırılıb, maneələrin konfiqurasiyası dəyişiklik edilib.

İyunun 5-də Bakıda velosiped idmanının BMX növü üzrə dünya çempionatının açılış mərasimi olub.

⇨ səh. 3

**İdman.- 2018.- 12 iyun.- S. 1.**